**Dövlət Statistika Komitəsində "Sənaye və tikinti statistikası sahəsində beynəlxalq təcrübənin tətbiqi" və "Enerji balansının tərtib olunmasının metodoloji əsasları" mövzularında keçirilmiş seminar haqqında**



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 28dekabr 2011-ci il tarixli, 38/7 saylı kollegiya qərarı ilə təsdiq edilmiş "2012-ci il üçün metodoloji və məlumat istifadəçiləri ilə iş planı"na uyğun olaraq, Aparatın Sənaye və tikinti statistikası şöbəsi tərəfindən "Sənaye və tikinti statistikası sahəsində beynəlxalq təcrübənin tətbiqi" və "Enerji balansının tərtib olunmasının metodoloji əsasları" mövzuları üzrə 2012-ci il oktyabr ayının 5-də Dövlət Statistika Komitəsinin inzibati binasında seminar keçirilmişdir.

Seminarda rəsmi statistika məlumatlarının istifadəçilərindənİqtisadi İnkişaf, Ekologiya və Təbii Sərvətlər, Nəqliyyat, Sənaye və Energetika nazirliklərinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, Dövlət Neft Şirkətinin, "Azərenerji" ASC-nin, "Azəristiliktəchizat" İB-nin, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Şirkətinin, "Trend", "Salam news", "APA" İnformasiya Agentliklərinin nümayəndələri iştirak etmişlər.



Seminarda şöbə müdirinin müavini Hacıbala Dadaşov və şöbə müdirinin müavini, Energetika sektorunun müdiri Rauf Qurbanov tərəfindən qeyd olunan mövzulara dair təqdimatlarla çıxışlar edilmişdir. Daha sonra, təqdim olunan mövzular müzakirə edilərək, istifadəçilər tərəfindən verilən suallar ətraflı cavablandırılmış,  onların rəy və təklifləri nəzərə alınmışdır.